# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN

# "İSTİQLALİYYƏT BİLDİRİŞİ"

(KQB ARXİVLƏRİNDƏN ÇIXARILMIŞ SƏNƏD)

(16 YANVAR 1946)

## Azerbaycan Demokrat Fırkası'nın Bağımsızlık Bildirisi

KGB Arşivlerinden Alıntı

(16 Ocak 1946)



ELDAR QARADAĞLI

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN

# "İSTİQLALİYYƏT BİLDİRİŞİ"

(KQB ARXİVLƏRİNDƏN ÇIXARILMIŞ SƏNƏD)

(16 YANVAR 1946)



ELDAR QARADAĞLI

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN “İSTİQLALİYYƏT BİLDİRİŞİ”

## (KQB ARXİVLƏRİNDƏN ÇIXARILMIŞ SƏNƏD)

## (16 YANVAR 1946)

**ELDAR QARADAĞLI**

Korrektor və qapaq dizaynı:
**A. Urman**

Yayım şirkəti:
**Sonmediya və SON Production**

# Ön söz

Vahid millət, vahid xalq olan Azərbaycan xalqının, Azərbaycan türklərinin son iki əsrdə bir-birindən əsasən ayrı yaşamaq məcburiyyətində qalması, bizlər üçün bir o qədər də xoş olmayan yeni anlayışların (Quzey Azərbaycan, Güney Azərbaycan və b.), fərqli baxışların yaranmasına da səbəb olmuşdur. Əslində bizim istəməyərəkdən, ancaq məcburən Quzey Azərbaycan və Güney Azərbaycan adlandırdığımız anlayışlar, vahid və bütöv Azərbaycandan başqa bir şey deyildir. Bu anlamda hələlik, siyasi-hüquqi müstəvidə var olan iki Azərbaycandan (birinin müstəqil, digərinin isə hazırda İran adlanan ölkənin bir hissəsi kimi) danışmaq, yazmaq məcburiyyətindəyik.

Quzey Azərbaycan Türkləri 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyəti yaratmaqla öz müstəqilliyini yenidən təmin etmişlər. Doğrudur, 27 aprel 1920-ci ildə Sovet Rusiyasının 11-ci ordusunun işğalı nəticəsində Quzey Azərbaycanın müstəqilliyi təqribən 70-71 il aradan qaldırılmışdır. Ancaq 18 oktyabr 1991-ci illdə yenidən dövlət müstəqilliyimiz 28 may Milli istiqlal Bəyannaməsi əldə əsas tutularaq bərpa olunmuşdu.

1925-ci ildə Qacar Türk dövlətinin devrilməsindən sonra onun yerinə qanunsuz şəkildə meydana çıxan İran Pəhləvilər dövründə Güney Azərbaycn Türkləri 1945-ci ilin 12 dekabrında (21 Azər 1324) Milli İstiqlalını bəyan etmişdir. Güney Azərbaycan Türklərinin Milli İstiqlal Bəyannaməsi daha çox Azərbaycan Demokrat Firqəsinin "İstiqlaliyyət Bildirişi"ndə öz əksini tapmışdır. Azərbaycan Demokrat Firqəsinin 16 yanvar 1946-cı il tarixindəki 12 maddəlik "AZƏRBAYCAN XALQININ TƏLƏBLƏRİ" və ya da "İstiqlal Bildirişi"ndə açıq-aşkar şəkildə Milli İstiqlaldan bəhs olunmuşdur. Həmin "İstiqlal Bildirişi"nin varlığı belə yetərlidir ki, Güney Azərbaycan Türkləri yenidən Milli müstəqilliklərini bərpa etsinlər.

Çox təəssüflər olsun ki, uzun müddət Azərbaycan xalqı əsasən "İstiqlal Bildirişi"nin varlığından xəbərsiz olmuşlar. Ona görə də Güney Azərbaycan Milli Qurtuluş Partiyasının başqanı, milli aydın Eldar Qaradağlının ərsəyə gətirdiyi həcmcə kiçik, mənaca çox böyük olan bu əsəri alqışlayırıq. Çünki bu əsrdə Güney Azərbaycan Türklərinin 1945-1946-cı illərdə mövcud olmuş hökumətinin Milli İstiqlalından bəhs olunur. "İstiqlal Bildirişi"ndə qeyd edildiyi kimi,

Azərbaycan Milli Demokratik Respublikası öz milli varlığını dünyaya elan etməklə İran adlanan ölkədən tamamilə ayrıldığını ortaya qoymaqda israrlı olmuşdur.

Sayın Eldar Qaradağlı  Azərbaycan Demokrat Firqəsinin 16 yanvar 1946-cı il tarixindəki 12 maddəlik "İstiqlal Bildirişi"ni doğruluq, obyektivlik və millilik prinsipləri əsasında hərtərəfli təhlil etmişdir.

Biz də hesab edirik ki, hazırda "İran İslam Respublikası" adlanan dövlətdə Güney Azərbaycan xalqı nəinki haqq etdiyi yerdədir, üstəlik ən çox haqsızlığa məruz qalmaqdadır. Təbii ki, bu sonsuza qədər belə davam edə bilməz. Bu anlamda bu problemin həlli nə milli mədəni, nə də milli-məhəlli muxtariyyatda deyil. Bizcə, artıq hazırda Güney Azərbaycan türklərinin Təbriz mərkəzli yeni bir Türk dövləti yaratmaqdan başqa yolu qalmayıb. Çünki ötən 45 il ərzində İslam dini adı altında hakimiyyəti idarə edən İran İslam rejimi aryançı qılığından və Türk düşmənçiliyindən əl çəkmədi. Bu isə o deməkdir ki, 54 illik Pəhləvilər rejimi kimi İran İslam hakimiyyətinin də Türkün haqqını Türkə vermək niyyəti yoxdur üstəlik, aşkar şəkildə Türk düşmənçiliyi siyasətini də aparmağa davam edir.

Əgər 1925-ci ilə qədər pis-yaxşı bu dövlətdə hakim bir millət olan türklər bu gün nə milli-mədəni muxtariyyata, nə də milli-məhəlli muxtariyyata rəva görülmürsə, o zaman tək yol yeni bir dövlət yaradıb sıfırdan başlamaqdır. Bir sözlə, vaxtilə özünün yaratdığı dövlətdə artıq bir əsrə yaxındır, bütün haqq və azadlıqlardan məhrum olan şərəfli, qürurlu bir millətin yapa biləcəyi tək xilas yolu, əvvəllər də bunu dəfələrlə ortaya qoyduğu kimi, yeni bir Türk dövlətinin əsasını qoymaqdır. Sadəcə, yeni bir Türk dövləti bu dəfə hər hansısa bir Türk boyunun öncüllüyü ilə deyil, kollektiv Türk şüurunun nəticəsi olaraq meydana çıxmalıdır.

Yeni bir Türk dövlətinin sərhədlərini, coğrafiyasını, bayrağını, idarəetməsini isə onun, neçə min illik Türk dünyagörüşü bəlirləyəcəkdir. Biz Türklər hər zaman Türklük şüuru ilə, Türk fəlsəfəsi ilə dövlətimizi yaratdıq, böyütdük və ucaltdıq. İndi də Türk xalqı eyni yoldan hərəkət edib yeni bir Türk dövlətini yaradacaq, bizimlə bərabər olmaq istəyənlərə qapısını açıq tutacaq, düşmənçilik edənlərə də layiqli yerini göstərəcəkdir.

Beləliklə, bizcə, yeni bir Azərbaycan Türk dövlətinin quruculuğu yolunda millətləşmə, dövlətləşmə və bütövləşmə dedikdə, aşağıdakılar nəzərdə tutumalıdır:

Biz, millətləşmə dedikdə, yeni bir millət yaratmağı deyil, dünənə qədər var olmuş böyük Türk millətimizin bütün sahələrdə (dil, tarix, mədəniyyət və s.) dirilişini dərk etməliyik.

Biz, dövlətləşmə dedikdə dünyada ilk dəfə dövlətə sahib olmağı deyil, vaxtilə var olmuş dövlətlərimizin (Aratta, Kuti, Subar, Turukki, Manna, Midiya, Oğuzlar, Xəzərlər, Hunlar, Səlçuqlar, Baharlılar, Bayandurlular, Qızılbaşlılar, Əfşarlar, Qacarlar və b.) külləri içindəki qığılcımları tutuşdurmaq və növbəti bir Türk dövlətini ortaya qoymağı idrak etməliyik.

Biz, bütövləşmə dedikdə, Türk şüurumuzdakı bütün yad ideyalardan qurtulmağı, yad dövlətlərin tərkibində parça-parça yaşamağı bir kənara qoyub, həm şüuri, həm də fiziki anlamda bir olmağı anlamalıyıq.

Demək istədiyimiz odur ki, millətləşmə, dövlətləşmə və bütövləşmə anlayışlarına qarşılqılı şəkildə baxaraq, birinin o birisi ilə daim bağlılığını göz önündə tutaraq, yeni bir Türk dövləti qurmaqdan başqa çarəmiz yoxdur. Artıq bizlər nə Səfəviləri, nə Əfşarları, nə də Qacarları bərpa edə bilmərik, çünki o dövlətlərimizin ilkin mahiyyəti ilə son mahiyyəti arasında xeyli fərqlər vardır. Bunu bizə edənlər təbii ki, Türk düşmənləri oldular və həmin dövlətlərimizi, ən sonuncu olaraq da Qacarlar Türk dövlətini əlmizdən aldılar. Artıq biz türklər, nə qədər də desək ki, İran Pəhləvilər, İran İslam rejimləri də bizim Türk dövlətçiliyimiz üzərində qurulub, bu gerçəklik dövlətimizin artıq əlimizdən çıxması gerçəkliyini ortadan qaldırmır və qaldırmayacaq da. Ona görə də millətləşmə, dövlətləşmə və bütövləşmə üçlüyündən çıxış edərək yeni bir Türk dövlətinin təməlini atmaq lazımdır. Şübhəsiz, böyük Azərbaycanın kiçik bir hissəsində Azərbaycan Respublikasının mövcudluğu  yaxın illərdə qurulacaq böyük Türk dövlətinin əsas nüvəsidir. Bu, elə bir təbii gerçəklikdir ki, bütün dünya millətləri bir araya gəlib buna qarşı çıxsalar belə, yenə də Azərbaycan mərkəzli yeni böyük Türk dövlətinin meydana çıxmasına əngəl ola bilməyəcəklər.

Bunun üçün də öncə Güney Azərbaycan Milli Demokratik Respublikası yaradılmalı, daha sonra iki müstəqil Azərbaycan dövlətinin (Azərbaycan Respublikası və Güney Azərbaycan Milli Demokratik Respublikası) birləşdirilməsi prosesinə başlanılmalıdır.

Yaşasın vahid Azərbaycan xalqı!
Yaşasın Bütöv Azərbaycan!

Faiq Qəzənfər oğlu Ələkbərli
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
“Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir
fəlsəfəsi” şöbəsinin müdiri,
Bütöv Azərbaycan Ocaqlarının (BAO)
Türk Dünyası ilə əlaqələr üzrə müavini

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN "İSTİQLALİYYƏT BİLDİRİŞİ"

Hər millətin taleyində böyük rolu olan nadir tarixi olaylar var ki, qoyduğu və ya qoya bildiyi etkisi ilə başqa olaylardan fərqlənir.

Dünyada heç bir iç olayı dış etkilərin eşiyində tutmaq olmaz! Bu üzdən tarixə düşmüş hər hansı bir olayı özündən və özlüyündən uzaq tutaraq sonuca bağlamaq mümkün deyildir.

20-ci yüzillikdə Azərabycanda baş vermiş olayların gedişatına qarşı, yalnız bilgi gizləmək deyil, həm də tək anlamla düşməncə yanaşılmışdır. Buna görə də, Güney Azərbaycanda üz vermiş bütün milli-siyasi olaylar, o cümlədən Azərbaycan Milli Hökuməti (1945-46) bu düşməncə yanaşmalardan uzaq qalmamışdır.

Bu tarixi olaylarla bağlı bir çox real bilgilərin həm dostlar, həm də düşmənlər tərəfindən senzuraya məruz qalması və məhv edilməsi bu günkü nəslin dağınıq düşüncəsində böyük rol oynamışdır. Bu doğrultuda, Tudə partiyası kimi dost paltarı geymiş iki üzlü irançı siyasi qurumların casusluq və pozucu çalışmalarına göz yummaq olmaz. Bu dost qılıflı aldadıcı düşmənlər illər boyu Azərbaycan Demokrat Firqəsi (ADF)-nin mücadilə xəritəsini dəyişdirmək üçün görəvlərinin ilk

aşamasını yerinə yetirəndən sonra, ikinci aşamada ADF-nin tarixsəl gərçəklərinin təxribatı yönündə də fəal rol oynamışdır. Bu iki aşamalı ve caydırıcı təxribat kompaniyasına aşağıdakı başlıqlarla işarə etmək olar:

A) Tehranın gerici rejimi bir siyasi despot hökuməti olaraq İran millətinin (!?) ortaq düşməni, ADF-ni isə, iranilik içində bir varlıq olaraq vahid İran millətinin qayğısı üzərində qurulmuş bölgə qurumu olaraq göstərmək. Həmin ssenari üzündən ADF-nin müstəqil imicini və Azərbaycan Türk Millətinə aid olduğu gərçəyini zədələmək.

B) ADF-nin içinə sızaraq, onun bağımsızlıq ideallarını yox etmək, onu mərkəzi farsçı rejimin masasına çəkmək, bu yalançı maskaçıların başka oyunları idi.

C) ADF-nin içindəki gəlişmələri, sovet səfirliyi aracılığı ilə hər an Moskvaya raport etmək.

D) Sovet Azərbaycan ilə ADF başçıları arasındakı qardaşlıq ilişkilərini pozaraq, Azərbaycanın iki Mir Cəfərini qarşılıqlı düşmənlərə çevirmək.

E) Əlverişli fürsətlərdə ADF üzərindən Tehran dövlət hökumətindən siyasi pay qazanmaq. Belə ki, Pişevərinin Tudə partiyası tərəfindən milli məclisdəki səlahiyyətinin rəd edilməsindən sonra 3 Tudə partiyası vəkili Əhməd Qəvam kabinetində nazir vəzifəsinə yüksəldi.

ADF-nin ağır yenilgisi ilə başlayan soyqırım sürəcində 10 minlərcə suçsuz Azərbaycan türkü Tehran faşistləri və onlara satılmış yerli xayinlər əlilə öldürüldü. Sankı heç bir fəlakət olmamış kimi, İran Tudə partiyası və başqa İran mərkəzli sözdə demokrat, solçu, sağçı qurum və mərkəzlərin caydırıcı sözdə araşdırmaları yola düşərək, Azərbaycanın bir illik olaylarını yalanlar kölgəsində saxlamağa çalışdılar. Açığı, həmin araşdırmaların hədəfində Azərbaycan Demokrat Firqəsinin təxrib edilməsi dayanmış və dayanmaqdadır.

Sovet sisteminin çöküşündən sonra Azərbaycan Respublikasının gizli arxivlərinin üzə çıxması ilə ADF-yə aid olan bir çox sənəd də işıq üzü gördü. Güneyin gələcəyi ilə bağlı bir çox önəmli sənədlərin işıq üzü görməsi çox geciksə də, yenə yol açıcıdır. Tarixçı yazar Prof Cəmil Həsənlinin bu bəlgələri toplayıb ortaya qoyması bu millətə verəbiləcəyi ən böyük xidmətdir. C. Həsənlinin ortaya çıxardığı saxlı bəlgələr, Güney Azərbaycanın gəncləri üçün son dərəcə önəmli və yön vericidir. Belə ki, vaxtı ilə Sovet dövləti arxivlərində gizli qalmış bu bəlgələrdə taleyüklü bir çox gərçəklər üzə çıxmaqdadır. Dərin diqqət və araşdırmalar sonucunda işıq üzü görmüş **“Güney Azərbaycan,Tehran-Bakı-Moskva arasında (1939-1945)” və “Soyuq Müharibənin başlanğıcı yer– Güney Azərbaycan (1946-1956)”** adları ilə bu iki cildlik sənədli əsərdə çox gizli ilişkilərə aydınlıq gətirməklə ölkəmizin taleyi ilə bağlı yeni üfüqlərin açılmasına imkan yaranmışdır.

Vaxtı ilə Seyid Cəfər Pişəvəri demişdir: ***“Biz öz millətimizin gücü ilə haqqımızı əldə etməliyik... Biz Şeyx Məhəmməd Xiyabaninin iştibahını (yalnışını) təkrar etməyəcəyik. Xayinlərə ölümdən başqa cavabımız ola bilməz. Xalq öz haqqını almaq üçün qurban verməkdən qorxmaz. Qurban verməyə hazır olmayan bir millətin azad yaşama haqqı yoxdur.*** “(S.C.Pişevəri. Güney Azərbaycan Demokratik Tarixi, 1.ci cild, Bakı 1947, s 200-201)”

Göründüyü kimi, S. C. Pişəvərinin çox açıq-aydın S. M. Xiyabaninin yalnışlığından söz açaraq bir daha millətin fəlakətə uğramaması üçün qurtuluş yolu axtarırdı. Lakin, olayların gəlişməsi və siyasi oyunların tərs gedişi Pişəvərinin özünü də tarix qarşısında müzakirə obyektinə çevirmişdir.

C. Həsənlinin yazdığı “Güney Azərbaycan, Tehran-Bakı-Moskva Arasında (1939-1945)” adlı kitabında yazılır: ***“Sovet Azərbaycanın məsul işləyənləri ilə müzakirələri nəticəsində hazırlanmış təkliflərdə dekabrin 12-də (21azər) Azərbaycan Milli Məclisinin 1-ci sessiyasının (toplantısının) açılışı, Azərbaycan muxtar hökuməti kabinəsinin təşkili nəzərdə tutulurdu. Dekabrın 15-20 /azərin 24-29/ arasında yerli hakimiyyətin irticaçı məmurlarının yeni yaranmış Azərbaycan Hökumətinə tabe edilməsi və bununla da, Azərbaycanda milli-azadlıq hərəkatının birinci mərhələsi başa çatmalı idi.”*** Həmin kitabda ayrıca belə gəlir: ***“ADF-də Mərkəzi Komitə (MK)***

***liderliyi, İran Azərbaycanında milli muxtariyyət hərəkatının sonrakı gedişindən, onun hansı formada inkişaf edəcəyindən qayğılanırdı. Milli-azadlıq hərəkatının birinci mərhələsinin təhlili əsasında qeyd olunurdu ki, əgər Şah və İran hökuməti Azərbaycan muxtariyyətini rəsmən tanısalar da, Sovet ordusu Şimali İran hüdudlarından çıxdıqdan sonra vəziyyət köklü şəkildə dəyişə bilər. ADF liderlərinin fikrincə İranda istənilən hökumət Sovet ordusunun çıxmasından istifadə edib silah gücü ilə Azərbaycanın muxtariyyətini ləğv edəcəkdir.*** (SMBY,GA. 1945-1946. Kitabından alınmış. Arxiv adresi: Azərbaycan Respublikası, Siyasi partiyalar və ictimai hərəkatlar mərkəzi dövlət arxivi, fond 1, siyahi89, iş 97, vərəq 76-77.)

Sovet Azərbaycan Kommunist partiyasının teorisiyənləri və liderlərinin fikrincə ADF-öndərliyinin tədirginliyi olduqca doğru idi. Onlara görə, Güney Azərbaycanın milli hüquqlarının tanınmamasını, İran dövləti və farsçı siyasilərinin böyük ölçüdə fars şovinizminə tutulmasında görmək gərəkir. Mir Cəfər Bağırova verilən Güney raporlarında deyilirdi: ***"Onların dərin inamına görə, İran Azərbaycanında yaşayan azərbaycanlılarının milli hüquqlarının müdafiəsinin yeqanə təminatı Monqolustan Xalq Respublikası formasında müstəqil demokratik xalq dövlətinin yaradılması idi. Ona görə, hadisələrin inkişafi və irticaçı Tehran hökumətinin Azərbaycan xalqının tələblərinə***

***münasibətdə küt və dəyişməz mövqeyi İran Azərbaycanda müstəqil xalq demokratik hökumətinin yaradılmasını qaçırılmaz zərurətə çevirdi. Tarixi ədalətsizliyi ləğv etmək, Azərbaycan xalqının bir əsrlik arzu və istəklərini təmin etmək məqsədi ilə biz milli komitənin və ADF MK-nin İran Azərbaycanı milli-azadlıq mübarizəsinin ikinci mərhələsinin başlıca vəzifəsi kimi Monqolustan Xalq Respublikası formasında dövlətçilik yaradılmasını düzgün təklif hesab edirik.”*** (SMBY,GA kitabında alınmışdır. Bəlgə adresi: Azərbaycan Respublikası, Siyasi partiyalar və ictimai hərəkatlar mərkəzi dövlət arxivi, fond 1, siyahi89, iş 97, vərəq 78)

Bəlgələrin yazıldığı tarixə dayanaraq, hardasa bu bəlgədən bir ay sonra M.C. Pişəvəri ilə 4 başqa liderin imzası ilə ***“Azərbaycan xalqının tələbləri***” adlı bir milli-siyasi platform hazırlanmışdır. Bu platformda aydınca İstiqlal sözü ortaya qoyulur. Elə buna görə də, bu kitabca ***İstiqlal Bildirişi*** adı ilə ortaya qoyulmuşdur.

Bildiriş açıq-aydın İstiqlal söyləmi ilə başlayır, həmin tema ilə də sonunadək ən ufaq belə, axsaqlığa yol vermədən sürür. Bildiriş, 12 maddəlik platform tərzilə yazılmış, düzənlənmiş və İstiqlal Bildirişi kimi yayıma hazırlanmışdır.

Bildirişin ön sözündə yazılır: ***“Biz İrandan tamamilə ayrılıb demokratik əsasda öz müstəqil dövlətimizi – Azərbaycan Milli Demokratik Respublikasını qurmalıyıq...Bizim***

***ölkəmiz Azərbaycan Milli Demokratik Respublikası adlanmalıdır."*** (SMBY,GA kitabından alınmış. Azərbaycan Respublikası, Siyasi partiyalar və ictimai hərəkatlar mərkəzi dövlət arxivi, fond 1, siyahi89, iş 118, vərəq 54,55)

Sözsüz ki, ADF tərəfindən istiqlaliyyət şüarının ortaya qoyulması bir hazırlıq sürəsini tələb edirdi. Çünki, Firqənin 12 Şəhrivər adlı muxtariyyət şüarının birdən-birə istiqlaliyyət şüarına çevrilməsi bir anlığına olası iş deyildir. Ancaq, bu hazırlığı keçirmək üçün onu toplum içində göstərmək çox lazimidi. Azərbaycan Demokrat Firqəsinin liderlik orqanlarına qədər sızan Tehranın gizli casusları və Tudə partiyasının eşikdən bir başa təxribatı ilə ADF-nin son amacına yürüyən yollar bağlanırdı. Bu üzdən bir çox zamanlar son sözü Bakıdan M. C. Bağırov deməli olurdu.

Burada belə bir sorğu ortaya çıxır ki; 12 dekabr (21 azər) 1945-dən 16 yanvar 1946-cı ilə dək qısa sürə içində Güney Azərbaycanda nə kimi irəliləyiş yarana bilərdi ki, muxtariyyət şüarı istiqlaliyyət şüarı ilə dəyişsin? Başqa sözlə Milli Hökumətin birinci sürəci ilə ikinci aşaması arasında nə kimi dəyişiklər yaranmışdır? Nə üçün ADF qısa sürəc içində istiqlaliyyət bildirişi gərəyini görmüşdür? Göründüyü kimi, ADF 16 yanvar 1946-cı ildə Güney Azərbaycan istiqlaliyyət bildirişini yaymağa hazırlanmışdır. Bu 12 ilkəlik bildirişdə Azərbaycanın İrandan tam ayrılıb, demokratik təməldə öz müstəqil dövlətini qurub adını isə (Azərbaycan Milli

Demokratik Cümhuriyyətı) adlandırma qərarı almışdır. Bu bildirişin altında Baş nazir S.C.Pişəvəri, Maarif Naziri M. Biriya, İçişlər Naziri S. Cavid, Sədr Müavini S. Padgan və Milli Məclis başqanı Ə. Şəbüstəri imzası qoyulmuşdur.

Bu bildirişin qəzetlərə verilmədən öncə ADF-nin öz içində müzakirəsi gərəkirdi. Bu üzdən ADF başçılarına yaxın olan orqan və şəxslər istisna olmaqla bu bildirişin Azərbaycan Qanuni Əsasısının (Konstitusiya) hazırlanması ilə birlikdə ümummilli müzakirəyə buraxılması düşünülmüşdür.

Bu haqda sol düşüncəli üç tanınmış təbrizli araşdırmaçı və yazarın (Qulaməli Dehqan, Məhəmmədəli Fərzanə, Məhəmmədhüseyn Mübəyin) qələmə aldığı farsca *"Keçmiş Gələcəyin Çirağıdır*" kitabında çeşidli İran mərkəzli sözdə ADF-nin varlığını qəbul edən mərkəzlərə dayanan çoxlu yazılardan bir neçəsinə işarə olunur: ***"...ADF tərəfindən ortaya qoyulmuş bir para siyasi hərəkətlər hətda ADF-nin öz bildirişlərinə, məramnamə və konqerə qərarlarına qarşı olaraq, əməldə Azərbaycanı mərkəzi İran hökumətindən qoparmaq və Azərbaycana tamamilə İstiqlaliyyət almaq yolunu açmaq idi."***

***İran milləti(?) hesab edir ki, ADF addım-addım istiqlala doğru yönəlir. Siz gərək bu yoldan əl çəkib, bütünlüklə iranın sözünü önə çəkəsiniz. O zaman zəncirli Kürd, məzlum Lur, basqı altında olan Bəluç, çılpaq və ac Fars, Kirmanlı, Xorasanlı, Mazəndəranlı, Xuzistanlı və bu***

***basqıçı zalim sistemə bağlı olmayan hərkəs sizinlə səs bir olaraq bayrağınız altında toplaşacaqlar. Kimsə var olan durumdan məmnun deyildir. Ancaq, millət öz istiqlalını və vətənini azadlıq və səadətdən daha çox sevir. Onların qorxusu sizin haqqınızda deyilən separatçılığa meylilik və ölkəni dağıtmağınızdır…,***

***Unutmayın ki siz ölkənin bir küncündə yerləşirsiniz. İranın heç bölməsi sizinlə deyil! O əyalətlərdə size qarşı top, tank, Tüfəng və savaş aracları yığılıbdır. İran dövləti və nüfuzlu qatmanlar sizin qanınıza yerikləmişlər. Azərbaycanın özündə də sizin düşməniz az deyildir…,***

***Siz öncə iranın bütünlüyü üçün söz deməli, o doğruntuda hərəkət etməlisiniz… Siz, olduğunuz yerdə İran üçün demokratiya, ədalət, musavat örnəyi olan hökumət yaradaraq, bütün iranlıları ətrafınızda toparlayasınız. Siz gərək gəlib bütün gözü yolda qalan iranlıları qurtarasınız! Ancaq belə olan halda İran milləti sizi bağrına basaraq qəbul edər!*** (Keçmiş gələcəyin çirağıdır. Toplayan Cami, seh. 344, 345 Qoqnus yayın evi, Tehran)

Bunlar, saysız hədə-qorxu və şantajlardan ibarət yalnız bir neçə örnəkdir. Göründüyü kimi özlərini dost kimi göstərib, ADF-nin quyusunu qazan Türk və Azərbaycan düşmənləri durmadan fəaliyyət edirdilər.

Bu haqda S. C. Pişəvərinin Azərbaycan qazetində verdiyi cavablardan birinə belə yer verilir:

***“Belə sözləri özlərini demokrat bilən Tehran ziyalıları yazır. Bu isə göstərir ki, onlar necə yazıq və çarəsiz kimsələrdir. Onlar, öz iradə və güclərinə inanmadan qurtuluş yollarını başqalarında axtarırlar. Bir millət üçün bundan daha böyük qara günlük olamaz!...”***

***“…Bizim milli kimlik və özəlliyimizi dəyişməyə çalışan azadlıq maskalı kimsələrə artıq aldanmayacayıq. Bizim andımız vardır: Ya azadlıq, ya ölüm!”***

(Keçmiş gələcəyin çirağıdır. Toplayan Cami, she. 345 Qoqnus yayın evi, Tehran)

**1946-ci ilin yanvar ayının 16-dan bir gün öncə, Azərbaycan Milli Məclisinin toplantısı qurulmuş və bu toplantıda bir ay içində Azərbaycan ölkəsinin anayasasının yazılıb müzakirəyə buraxılması təsdiq olunmuşdur. Anayasanın yazılması üçün komissiya yaranmış və 15 nəfərlik üzv seçilmişdi. Xanımlar Ş. Ciddi və E.Türki, ağalar isə Ş. M. Kiyani, E. Pəjuhəndi, S. Məqrurçiyan, A. Bayat Maku, Dr. C. Məhtaş, İ. Şəms, Ə. Rahimi, Z. A. Qiyami, F. İbrahimi, S. Padiqan, M. Əzimah, Dibaiyan bu komissiyanı oluşdurdular.**

(Azərbaycan qazeti N 102, 1946/ yanvar/ 17)

Bir neçə gün sonra Azərbaycan Milli Məclisi özünün bir ay öncə verdiyi mərkəz yönlü qərarını qüvvədən düşmüş hesab edərək, İran dövlətinə bağlı olan polis, jandarma və ordu qurumlarının geyim formasını dəyişdirib, Azərbaycan Milli Ordusuna özəl tikilmiş formaları, dərəcələri və quruluş strukturlarını devrəyə soxdu. Bu olaydan bir neçə gün sonra, Milli Məclis məhkəmə və cəza qanunlarını da mərkəzi İran qanunlarından ayırıb, Azərbaycana özəl cəza və məhkəmə qanunları ilə dəyişdi.

16 yanvar 1946-cı günə yaxınlaşdıqca müstəqillik təməllərinin atışı sürətlənir, yeni düzəlişlər və layihələr aparılırdı.

**16 dekabr 1945-ci ildə Milli hökumət Azərbaycandan qaçaraq, düşmənlərə sığınan şəxslərin mülkiyyətinin milli elan edilməsini rəsmi qəzetlərdə yayımladı. Bu qanuna görə, vətənə xəyanət edən, düşmənlə əlbir olan xanların, böyük mülkədarların şəhərdə və kənddə mallarına əl qoyulur və milli sərvət elan edilir. Bu haqda bir ailə komissiyonunun yaranması və bu qurumun ticarət, iqtisad, kənd təsərrüfatı, xəzinə varlığı, ölkə və prokurlorluq nazirliklərin nümayəndələrinin üzv olma şərtləri Milli Məclisin onayına göndərilmişdir. (Azərbaycan qəzeti No. 106, 131. 1945, Təbriz)**

1941/09/15-də M.C. Bağırovun "Təbrizə göndərilən ilk azərbaycanlı və az sayda rus zabitlərə belə danışmışdır:

***“Sizə məlumdur ki, bizim Qızıl Ordumuz az vaxt içərisində Şimali İranda xeyli ərazi tutmuşdur. Bu ərazilər əsas etibarilə bizim Cənubi Azərbaycan torpaqlarıdır. Tarixən bura Azərbaycan torpağı kimi tanınmışdır. İranın böyük şəhərlərindən olan Qəzvin, Urmiya, Miyanə, Marağa, Təbriz, Ərdəbil, Səlmas, Xoy, Ənzəli və s. bizim ata – babalarımızın doğma vətənləri olmuşdur. Hələ doğrusunu bilmək istəsəniz, Tehran da qədim Azərbaycan şəhəridir.”***

***“Burada sizə bir məsələni də deməliyəm. O məsələ də bundan ibarətdir; nə qədər ki, bizim Qızıl Ordumuz oradadır, biz heç vaxt razı ola bilmərik ki, gözümüzün qarşısında Cənubi Azərbaycan torpağında yüzlərlə adam acından həlak olsun. Əgər bizdə bir damcı belə azərbaycanlı qanı qalıbsa, gərək biz bir vaxtlar zorla parçalanmış xalqın birləşməsinə nail olaq... Buna bizim gücümüz və bacarığımız çatar... Nə qədər çətin olsa da, biz Cənubi Azərbaycan zəhmətkeşlərinə bu köməyi göstərməliyik. Buna bizim qeyrətimiz, vicdanımız, şərəfimiz və sədaqətimiz çağırır... Ona görə də biz öz rəhbərimiz Stalin yoldaşa məktub yazıb ondan Cənubi Azərbaycan zəhmətkeşlərinə kömək etmək məsələsini xahiş etmişik... Biz dörd – beş gündür ki, bu məsələyə başlamışıq, məndən Moskvada soruşurlar ki, nə istəyirsiniz. Cavab verdim ki, biz Cənubi Azərbaycanda yaşayan qardaşlarımıza kömək etmək istəyirik, buna bizə***

***icazə verməlisiniz. Moskvadakı yoldaşlar bizə bu icazəni verdilər."***

(Cəmil Həsənli, "İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939 – 1945)"- Bakı – "Yazıçı" nəşriyyatı, 2015, səh.68.)

Bu və buna bənzər çoxlu sənədlərə dayanaraq, 16 yanvar 1946-cı tarixinə yaxınlaşdıqca Azərbaycanda millətləşmə və dövlətləşməyə ümid sürəci durmadan sürətlənirdi. Milli Hakimiyyət və ADF-in sadiq başçıları dayanmadan istiqlal yönlü gedişatın təməllərini atmağa hazırlaşır və bu yöndə çalışırdılar.

Bakıda M. C. Bağırov (Azərbaycan SSRİ. KP. başqanı.) Güney Azərbaycana maliyyə, silah və avadanlıq vasitələrinin göndərilməsində əlindən gələn bütün yardımları edirdi. Ancaq, Moskvada, L. Beriya, V. Molotov və onların əmir qulu olan Tudəçi və gizli xayinlərin işbirliyi ilə ADF ziddiyəti durmadan gündəmə gəlirdi. Molotov İosif Stalinə Azərbaycanın güclənməsi və gələcəkdə birləşəcəyi ehtimalı ilə bağlı qorxunc bilgilər verirdi. Bu bilgilərə görə, Azərbaycanın bütövləşməsi Sovet üçün bəla olacaqdır. Onun fikrincə, güclü Azərbaycan Moskva qarşısında baxımsızlıq hərəkatına qalxacaq, Qafqaz bölgəsini öz etkisi altına alacaqdır. Güneylə bağlı susqun qalan Türkiyə də yaxın zaman içində bütöv Azərbaycanla işbirliyinə girəcəkdir. Molotovun fikrincə Qafqazlarda və bölgədə əsl kaus o zaman yaranacaqdır.

SSRİ-nin xarici işlər naziri Molotova görə, Moskva gərək İranın Şimal neftinin çıxarilması üçün Tehranla anlaşsın. Molotova görə, 20 milyon insan itirən və 20 milyon əlili olan Sovet ölkəsinin iqtisadiyyatına yeni can verən Şimal neftindən vaz keçmək böyük xətadır. Ona görə, SSRİ belə bir durumda Amerika, İngiltərə və Avropanın qarşısında durmaq gücündə deyildir. Bu üzdən Güney Azərbaycanı öz halına buraxmaq və onun yerinə İrandan şimal neftinin imtiyazını almaq SSRİ üçün bir qələbə idi.

Moskvanın nüfuzlu orqanlarının təsiri sonucunda Bakının Təbrizə göndərə biləcəyi yardımların önü günbəgün azalırdı. Elə buna görə də M. C. Bağırov Moskvadan istəkləri ilə yanaşı ADF-dən də dayanaqlı və kəskin olmasını istəyirdi. Bağırova görə, ADF muxtariyyət və İstiqlaliyyət arasında qalmamalı, kəskin olaraq doğru yol seçməlidir. Ona görə, Təbrizin kəskinsizliyi Bakının da əl-qolunu bağlayırdı. Onun düşüncəsinə görə ADF və Azərbaycan Milli Hökuməti özünü dünyadan təcrid etməməlidir. ADF başçılarının ***“Biz bir tərəfdən milli dövlət qururuq, digər tərəfdən isə mərkəzi İran dövlətinə bağlıyıq!”*** kimi ifadələrin hər gün təkrar olması düşmənlərdə cəsarət, dostlarda isə tərəddüd yaradırdı. Bu üzdən M. C. Bağırovun verdiyi notaların nəticəsi olaraq ADF rəhbərliyində ikili münasibətin olduğu aydınlaşırdı. Pişəvəri, Padiqan və İbrahimi kimi liderlərin istiqlala yönəlik hərəkətləri Cavid və Şəbüstəri kimi Tehran yönlü yetkililərin muxtariyyətçi əngəlinə taxılırdı. Sonrakı olaylarda, Cavid və Şəbüstəri kimi

siyasi aliş-verişçilərin rolunun üzə çıxması bir daha bu gərçəyi göstərdi ki, bir hərakatı irəliyə doğru aparanların milli ideal və millətçilik boşluğu olan zaman onların hər cür oyuna gəlməsinə şərait yarada bilər. Bağırovun Güney Azərbaycan Milli Hökumətinə yardım göstərməsinin hansı niyyətə bağlanması da maraqlı nöqtələrdən biridir. Bağırov SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bəzi iddialara görə, onun SSRİ KP içində hər an bir fraksiya yaratmaq gücü var idi. Onun ən böyük üstünlüyü əxlaqda və maliyyə işlərində təmiz olması idi.

1953-ci ildə Stalinin ölümündən sonrakı siyasi qarşıdurmalar zamanında onu xalq düşməni adlandırsalar da haqqında əxlaqsızlıq və rüşvət dosyası ortaya qoya bilmədilər. Bu üzdən bir çoxlarının tərsinə onu ölüm cəzasından dərhal sonra qurşuna düzməyib, aylar sonra  Bakıda gizlicə öldürüləndən sonra, Sibirə sürgün edildiyi xəbəri yayılmışdır. 1975-ci ildə isə, Moskva qəzetləri onun normal ölümündən yazaraq hikayəsini sonlandırmışlar.

Bağırova görə, ADF-nin Tehran rejimi qarşısında çox rahat təslim olmasının ən önəmli nədənlərindən biri, muxtariyyətlə istiqlaliyyətin arasında iradəsiz qalması idi. Ona görə, ADF doğru yol seçməkdən qaçaraq, Tehran tuzağına düşmə yoluna gedirdi. Bağırov düşünürdüki, Moskvanın Güneydən üz çevimə izlərinin görünməsilə ADF bir an İstiqlal Bildirişini verməli, Güneyin milli davasını Amerika, İngiltərə və SSRİ

bataqlığından uluslararası alana daşımalı idi. Belə olan halda 2.ci Dünya Savaşından sonra uluslararası alanda Güney savaşı ciddi bir milli mücadilə meydanı kimi diqqət mərkəzində olacaqdır. Tehran faşizmi isə, Güneyi əliyalın yaxalaya bilməyəcək idi. Bu üzdən, Bağırov son bir həmlə olaraq, bir başa İ. Stalinə müraciət edərək Sovet qoşununun Güney bölümlərinə silah-sursatın artmasını, modernləşməsini, maliləşməsini istəmişdir. O, son şansını əldə etmək üçün Stalindən 9 maddəlik istəyində Güney-Quzey dəmir yolunun birləşməsini, Güneydən 80-90 min işçinin Bakıda qəbul olunmasını, ADF hökumətinin maliyyəsinə yardım etmək üçün 4-5 milyon rublenin kredit olaraq verilməsi və bu kimi istəklərdə bulunmuşdur. Sözsüz ki, dəmir yolu projesi dışında Bağırovon bu istəkləri Moskva tərəfindən qəbul edilməmiş, tərsinə Bağırovun bundan sonra Güney olaylarına qarışmaması əmr edilmişdir.

Moskva, Bakıya verdiyi cavabla öz niyyətini açıqlayıb və ilk yaşıl işığı Tehrana göstərmişdir. Artıq Molotovun siyasi xəritəsi Moskvanın qalib strategiyasına çevrilərək, Bakının əli-qolu bütünlüklə bağlanmışdır.

Tehranda Başnazir Həkiminin yerinə atanan Əhməd Qəvam ilə SSRİ müzakirələri Tehrandan başlayaraq Moskvada sürürdü. Öncədən gizli planlama üzündən Qəvam Stalinin bir sözünü iki etmədən SSRİ adına verilən bütün istəklərini həyata keçirməyə söz verir. Qəvam, hətta SSRİ istəklərinin

ötəsinə çıxaraq, bütünlüklə Moskvaya bağlı olan İran Tudə Partiyasını özünün Nazirlər Kabinetinə ortaq edərək üzdə M. R. Şahın düşməni sayılan 3 Tudəçini dövlətinə almışdır. Beləliklə, Moskvanın iki başlı siyasəti Tehran tərəfilə durulmağa başlamışdır. Beləki, Moskva bir tərəfdən Tehranla sıx əməkdaşlıqlara meyl göstərir, başqa yandan isə ADF-nin Tehrana təslim olmasını demokratiya və sosializmin yaşaması üçün gərəkli hesab edirdi.

Moskvadan Bakı və Təbrizə yağan ümidsizlik siqnalları durmadan Azərbaycanı tədirgin, İranı isə umudlandırırdı. İran Tudə Partiyası birbaşa moskvadakı nümayəndələrinin aracılığı ilə Mikoyan, Molotov və Stalin kimi anti-türk SSRİ liderlərinə ADF konusunda şişirdirilmiş və gərçəklikdən uzaq raportlar ötürürdü. Tudə partıyasının hiyləkar və Azərbaycana qarşı düşmənçilik çabaları durmadan sürürdü. Üzdə özünü dost göstərən, arxada isə casusluqla uğraşan iki üzlü tudəçilərin işi ADF-yə qarşı Moskvanı dolduruşa gətirib, Azərbaycanın çöküşünü tezləşdirmək idi. Tudə partiyasının ADF düşmənliyi sadəcə Moskvada deyil, həm də ADF-nin içindəki casuslarının dost örtüyü altında ümidsizlik yaratmaq idi. Bu casusların çabasında Bakının bütünlüklə Təbrizdən uzaqlaşması və Moskvanın varsayım bütün yardım yollarının qapanması dayanmışdır.

Artıq, ADF-də ümidsizlik, xəyal qırıqlığı, kəskinliyə qarşı təslimçilik yaranmağa başlamışdı. Tehranın Təbrizə siyasi

üstünlüyü bütünləşmişdi. Moskva, Tehran, İngiltərə, Amerika və Tudə partiyasının ortaq projesi oluşmuşdur. Belə bir durumda, Bakının Təbrizə sunduğu istiqlaliyyət bildirişi (Xalqın Tələbləri) ağır basqı altında qalmışdır.

Təbrizə olan basqıların hər gün artması sınır tanımırdı. Amerika, İngiltərə və Rusiyanın özbəöz ortaq oyunu olaraq, İranın BMT-nin Təhlükəsizlik Şurasına şikayətində Rusiya ordusunun dərhal İrandan çıxmasını tələb etmişdi. BMT TŞ-nın Rusiya, İngiltərə və Amerikanın ordu bölmələrinin İrandan çıxma tarixini hər üç ölkə qəbul etmişdir. Artıq Moskva qolayca ordusunu Güneydən çıxarmaq üçün bəhanə əldə etmişdi.

Rusların Güneydən tam silah-sursatlı çəkilməsilə ADF cəbhəsində ağır ümidsizlik hakim olmuşdu. ADF içində ikili baxış şiddətli şəkildə böyümüşdü. Azərbaycan kütləsi, hər gün tədirgin olduğunu ADF yetkililərinə göstərir, çarə yolu axtarırdı. ADF başçıları isə, öz içlərində durmadan ümidsizliyə qapanaraq təslimçiliyə çəkilirdi.

Bu arada, Moskva və London arasında İran neftinə yiyələnmə rəqabəti qızğın danışıqlara nədən olmuşdur. Ərəb bölgələrinin obyektiv neft yataqlarının işlənməsi üçün çox böyük imtiyazlar əldə etmiş İngiltərə Rusiyanın İranın şimalındakı petrol macərası ilə həvəslənməsini çox istəyirdi. London, neçə başlı siyasətilə rusların qara noxud axtarışına düşməsinə şərait yaratmışdır. Həmin siyasətin bir parçası

olan Ə. Qəvam oyunu da öz aktuallığını Milli Məclis seçkilərinə bağlayaraq, Sovet ordusunun irandan çıxmasının tezləşməsini ön şərt olaraq ortaya qoyurdu. Ə. Qəvam, İran anayasasını önə çəkərək, şimal neft yataqları üzərində ortaq şirkətin yaranma şərtini Milli Məclisin seçkilərinə bağlayırdı. Milli Məclisin isə yenidən aktiv olmasının şərtlərini ümummilli seçkilərin keçirilməsinə, bunun isə Rusiya ordusunun çəkilməsinə bağlayırdı. Ə. Qəvam bu fikirlərini daha çox Tehrandakı Sovet, İngiltərə və Amerika səfirliklərinin ortaq siyasətindən alırdı. O, özəlliklə istədiyi anda Sovet səfiri Sadçikovla görüşür və Moskvanın Güneyə yönəlik strategiyasının sonucunun gətirməsi yollarını axtarırdı.

4/aprel/1946 tarixli üç başlıqlı "İran-Sovet" anlaşmasını da üç böyük dövlətin birgə strategiyasının diplomatik tablosu kimi görmək gərəkir. Qəvam-Sadçikov anlaşmasındakı başlıqlara bir göz atalım:

1- Anlaşma günündən başlanan 6 həftə içində Rusiya ordusu İrandan çıxmalıdır!
2- İranla Rusiya arasında (şimal nefti üzərində) ortaq neft şirkəti qurulacaq. Bu şirkətin qazanc payı 50/50 olacaq!
3- Azərbaycan sorunu İranın iç məsələsi olaraq, İran dövlətilə Azərbaycan arasında dostcasına həl olacaq!

Bu üç başlığa 7 icra maddəsi də artırılmışdır ki, hər yeddisində ADF və Güneyin necə təslim olma planları yer alırdı.

İlk baxışda belə görünür ki, guya London və Tehran siyasətçiləri Moskva üzərində etkili olaraq qələbə çalmışdır. Ancaq, siyasətin pərdə arxasını görənlər bilirdilər ki, Rusiyanın Azərbaycana qarşı siyasətinin altyapısında SSRİ Kommunist partiyasının baş diktatoru İ. Stalin, Xalq Komissarları Sovetinin sədri və Sovetin dünya üzrə siyasətinin baş memarı – Xarici İşlər Naziri V. Molotov, ayrıca Türk düşməni olan faşist Erməni daşnakçı A. Mikoyan kimilərin baxışları ana faktor idi.

Kəsinliklə Moskvanın anti-Türk, anti-Azərbaycan baxışları təkcə İkinci Dünya savaşı zamanında deyil, bütün tarix böyü danılmaz fakt kimi ortadadır. Rusların Türküstan və ya Avrasiyada genişlənmə amacı qarşısında doğal olaraq Türk varlığı dayanmışdır. Elə ona görə də, rusların böyük imperiya strategiyasının ən acı sonucu da türklərə toxunmuşdur. Bu üzdən tarix böyü ən ağır zərbələri türklərə vuran rus siyasətinin ADF və bütöv Azərbaycana qarşı konsepsiyasını da həmin bucaqdan görmək gərəkir. Ancaq, ADF başçılarının bunu görmə cəsarəti sovetizm ideologiyası duyğusunda boğulmuşdu.

ADF başçıları, bütün bu oyunlarını görə-görə yenə moskvaya umudlu baxırdı. Bu isə, bağışlanmaz bir suç kimi Azərbaycan tarixində daima qalacaqdır.

Necə deyərlər ***"Ayının min bir oyunu var, bir armudun başında!"***

Artıq rus siyasətinin ADF və Güney-Quzey Azərbaycana qarşı açıq tablosu ortaya qoyulmuşdur. Dünya bir yana, əliyalın Azərbaycan Türk Milləti bir yana qalmışdı. Bütün bəlalar durmadan azadlıq təşnəsi olan yurdumuzun üzərinə yağırdı. Ortada ancaq gələcəyə, gənclərimizə, fədarkar millətimizə veriləcək milli inam, dayanışma, dirənişmə ümidi qalmışdı!

ADF, bu çətin durumda iki yol ayrıcından birini seçməli idi. Ya dik dayanaraq millətinin Türk valığı və gücünə inanmalı, ölüm-dirim savaşına girməli, gələcək qoşaqlara bir türklük savaşı irsi buraxmalı idi və ya var olan siyasi oyunlara əyilərək əsarətə boyun əyməli idi! ADF başçıları gözləniləni etdi! Barmaq sayı qəhrəman şəhid lider dışında böyük kəsim quzey yolunu tutdu. Olan oldu, yurdumuz bir daha işğal altına düşdü. 30 min əliyalın Azərbaycan türkü düşmən tərəfindən yaşamını itirdi. Minlər Türk ailəsi evindən, vətənindən Farsistan çöllüyünə sürgün düşdü. Milli ideya boşluğu millətimizin 10 illərcə insancıl və özgürlük arzusuna çökdü.

## AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN MİLLİ İDEYA BOŞLUĞUNDA TARİXSƏL NƏDƏNLƏRƏ QISSA BAXIŞ

Təbriz-Bakının doğmalığını pozmaq, milli, insani Türk gəlişməsinin qarşısını əngəlləmək tarix boyu rus-fars birliyinin ortaq çıxarı və siyasəti olmuşdur. Azərbaycanın birlik ruhunun

pozulması ilə Tehran-Moskva arasında yeni gəlişmələrin sancısı bütün Azərbaycan Türk Millətinin bağrını deşirdi.

Azərbaycan 1945-46-cı illərdə bu faciəni bir daha yaşadı. Moskvaya bağlı olan Bakı, olayların içində qalaraq SSRİ-nin anti Azərbaycan siyasətinə baş əymək zorunda qaldı.

Rusların zorbalıqlarına təslim olan Bakının Güney olaylarına biganə qalmasının acısı başqa bir anlam daşıyırdı. Azərbaycan rəhbərliyinin bütöv Azərbaycan liderlik ideyası pozulmuş, yenidən bir millətin birləşmə şansı aradan qalxmışdır. Bu isə, rus-fars siyasətində Azərbaycan türklüyünə qarşı var olan dərin tarixsəl düşmənliyin bir başqa örnəyidi.

Yüz illərdən bəri Azərbaycana və Türk torpaqlarına göz dikən Rusiya imperiyasının zaman-zaman Qafqazlara yenməsi ilə millət-dövlət gücümüz olduqca azalmışdır. Rusların siyasəti ilə Quzeyın idarəsi xanlara, paşalara, bəylərə bölünmüş, Azərbaycan türklərinin bir-birinə düşmən kəsilməsinə nədən olmuşdur.

19-cu yüzilliyin başlanmasıyla rusların açıq siyasəti Güney Qafqaz, Azərbaycan və Türkiyə üzərindən torpaq qazanmaq olmuşdur. Buna görə, Rus dövlətçiliyinin böyüməsilə Türk dövlətləri güc itirə-itirə sonunda torpaqlarını da düşmənə vermişdir. Bunun ən böyük nədəni isə, Türk sülalə dövlətlərinin ruslar qədər öz millətinə dayanmaması olmuşdur.

Tayfaçılıq, dinçilik, məzhəbçilik, əşirətçilik və bir çox Millətaltı və Millətüstü amillərin Türk düşmənləri tərəfindən qullanması danılmaz örnəklərdir.

Ruslar, bu ayrımcılıq faktorlardan yararlanaraq ən ağır fəlakətləri Azərbaycana yaşadıblar. Rusiya-Azərbaycan savaşlarından ortaya çıxan 1805 Kürəkçay anlaşması, 1813 Gülüstan anlaşması,1828 Türkmənçay anlaşması bütünlüklə Azərbaycanın yenilgisi ilə sonuclanmışdır. Maraqlıdır ki, rusların Azərbaycana yürüməsi, Osmanlı dövlətinə savaş açması ilə eyn zamana tuş gəlir. Bu isə, rast gələ bir olaydan daha çox türklər arasında biganəlikdən doğan rus savaş planı olmuşdur. Rusların qələbəsi ilə sonuclanan ən son Rusiya-Osmanlı savaşlarının tarixilə yuxarıdakı tarixləri qarşılaşdırmaqla qonuya aydınlıq gətirək:

1806-1812- ci illər arası savaşlarında Osmanlı yenilgisi və Bükreş (Buxarest) anlaşması,

1828-1829- ci illər arası savaşlarında, Osmanlı yenilgisi və Edirnə anlaşması. Göründüyü kimi hər gah Türklər bir-birinə düşərək zəiflərkən ruslar dərhal basqın edib torpaqlarımızı qəsb etməyə çalışıblar!

Göründüyü kimi iki Qacar və Osmanlı Türk dövlətlərinin bir-birindən uzaq qalması Rusiya dövlətinin yararına olmuşdur.

Azərbaycan Demokrat Firqəsinin milli- mənəvi çöküşünü də bu qapsamda görmək gərəkir. Açıqcası, ADF çöküşü ruslarda

alışqanlığa gəlmiş Türk düşmənçiliyinin sadə bir gözləntisidi. Həmin bu gizli düşmən və müttəfiqləri ilə növbəti olaraq Azərbaycan Türk Millətinin nəcib arzuları qan dənizində boğuldu. Heç quşqusuz ki, fars faşizminin Azərbaycanda qan seli yola salmasıda, moskvanı insanlığın kəbəsi tanıtdıran Rus sömürgəçi dövlətin böyük rolu olmuşdu.

ADF rusların nə qədər pis niyyətlı olduqlarını hərkəsdən daha dərin bilirdi. Rusa inanmaq olmaz sözü dəfələrlə ADF başçılarından işidilirdi. Ancaq, bilə-bilə ki rusdan xeyir gəlməz, yenə rus umuduna qalırdılar. Elə buna görə də, bir millət baxa-baxa yaşam umudunu itirmiş oldu. Son silahı olan milli kimliyi – türklüyü- düşmənlərin eliminasiya mərkəzlərində ən ağır darbalara uğrarkən farslaşma və iraniləşmə dəyirmanında əzilməyə məhkum oldu. Milli şəhid professor M. T. Zehtabi demişkən:***“ 50 il boşluqda qalan bir millət, özgürlük gərçəyini unudar!”***

**Keçmiş gələcəyin güzgüsüdür!**

Keçmiş gələcəyin güzgüsüdür məntiqindən yola çıxaraq, dumanlar çəmbərində aydınlaşmayan keçmişimizin aydınlaşmasına çalışmaq gərəkir. Elə buna görə də, tariximizin ən dərin və qaranlıq döngələrinin aydınlaşması gərəkir. Məhz bu nədənlə, 1945-46-cı illərdə baş vermiş olayların pərdə arxası açılmalı, gələcəyə körpü olmalıdır. Bu açılış indiki ADF-in iki qanadının inadına qarşı olsa belə, gəncliyimizin bilgisinə ötürülməlidir. Özlərini ADF simpati

tanıdan, ancaq damarlarında Tudə partiyası qanı ilə yaşayanların hesabı bam-başqadır. Bu kəsim üçün sadəcə İran, iranilik və iraniləşdirmə çabasından başqa bir şey yoxdur. Ancaq, Azərbaycan Türk Millətinin dərdi bu yabançı və hələ də özgəlik bataqlığında palçığa batanlarla tutuşan deyil. Ulu türklüyümüzün insan toplusu halı ilə yaşamı, Güney Azərbaycan Türk Cümhuriyyətinin dövlət çatısının oluşumu bütövlük yolunun ilk qudsal ülküsüdür.

